# İşğaldan azad olunmuş ərazilərimizdə şəhərsalmanın hüquqi bazası təmin edilib

***Mətbuatımızın və ümumiyyətlə, cəmiyyətimizin leksikonuna istənilən vətənpərvər soydaşımızda qürur və iftixar hissi yaradacaq bir ifadə yazıldı: Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi. Dövlət başçımızın avqustun 12-də imzaladığı sərəncamla yaradılan bu qurum təkcə Qarabağın bundan sonrakı memarlıq məsələlərinin həllinə kömək etməyəcək, həm də Qafqaz və ümumiyyətlə, Avrasiya məkanında özünəməxsus nümunələri olan Qarabağ memarlıq ənənələrinin yaşadılması baxımından da mühüm əhəmiyyət kəsb edəcək.***

Şəxsən mən, sadə bir azərbaycanlı kimi, bu sənədin imzalanmasından yaranan məmnunluğumu dərhal qeyd etmək istəyirəm. Belə ki, bu tarixi sənəd təkcə mülki, yəni, memarlıq baxımından əhəmiyyətli deyil. Bu fərmanın çox böyük siyasi və hərbi əhəmiyyəti də var. Çünki Azərbaycan ərazisinin böyük bir hissəsini otuz ilə yaxın işğal altında saxlamış düşmən dövlət buradakı bütün tikililəri son daşına qədər söküb dağıtmışdır ki, ərazidəki Azərbaycan izləri tamamilə yox edilsin. Hətta bu məqsədlə bölgədəki 60-dan çox məscidi də Qarabağın xəritəsindən silməyə çalışmışdı.

Nəyin nə zaman və necə edilməsini hamıdan yaxşı bilən Prezident İlham Əliyev bu tarixi sənədi imzalamaqla erməni işğalının nəticələrinin növbəti dəfə dünya ictimaiyyətinə çatdırılması məsələsinə də yeni təkan verdi.

Dövlət başçımızın elə həmin gün imzaladığı “İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında” fərmanı isə Ermənistanın kapitulyasiya aktını imzalamasından təxminən on gün əvvəl -- ötən il oktyabrın 29-da təsdiqlənmiş fərmanın icrasını təmin etmək məqsədini daşıyır.

***(ardı 2-ci səhifədə)***



# İşğaldan azad olunmuş ərazilərimizdə şəhərsalmanın hüquqi bazası təmin edilib

*(əvvəli 1-ci səhifədə)*

Burada cənab Prezidentin 44 günlük müharibənin davam etdiyi günlərdə imzaladığı həmin sənədi xatırlatmağımız təsadüfi deyil. Çünki Ali baş Komandanımız müharibənin getdiyi günlərdə dünyanın müxtəlif ölkələrini təmsil edən otuzdan çox kütləvi informasiya vasitələrinə müsahibə vermişdi. Həmin müsahibələrin əksəriyyətində demişdir ki, biz işğaldan azad edilmiş ərazilərimizi yüksək səviyyədə bərpa edəcəyik.

Oktyanrın 29-da imzalanmış "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərmana əsasən, həmin ərazilərdə indiyədək xeyli inventarlaşdırılma işləri aparılmışdır. Müvəqqəti reyestr haqqında fərman isə aparılmış inventarlaşdırmanın nəticələri əsasında oradakı tikililərin mövcud vəziyyəti və həmin tikililərdə baş verən dəyişikliklər barədə məlumatların uçotunun aparılmasını təmin edəcək, habelə tikililərin sökülməsi sahəsində dövlət orqanlarının çevik əlaqələndirilmiş fəaliyyətinin təmin edilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestrini yaradacaq.

Avqustun 12-də Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında əsasnamə də təsdiq olunub. Sənəddə qeyd edilir ki, bu qurum "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli fərmanının müvafiq bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisində tikinti obyektlərinin inşasına və istismarına icazə verəcək. Eyni zamanda, inşaat işinə icazə üçün müraciət edilməzdən əvvəl aparılacaq tikintinin icazə verilən parametrləri barədə müraciətlərə baxacaq, tikinti məqsədləri üçün torpaq sahəsi ayrılarkən həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin müvafiq ərazinin şəhərsalma sənədlərinə uyğunluğunu yoxlayacaq. Eləcə də, səyyar və əsaslı tikinti olmayan obyektlərin, xırda pərakəndə ticarət obyektlərinin və komplekslərinin uyğunluğuna dair rəyləri də bu qurum verəcək. İdarə, bundan başqa şəhərsalma kadastrının aparılmasını təmin edəcək, habelə bu əsasnamədə nəzərdə tutulmuş digər sahələrdə fəaliyyət göstərəcək. Bu idarənin statusu mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan dövlət agentliklərinin və dövlət xidmətlərinin statusuna bərabər sayılacaq. Baş idarənin müstəqil balansı, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, komitənin və baş idarənin adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, xəzinə və bank hesabları vardır. İdarə Bərdə şəhərində yerləşir.

Bütün bunlar onu sübut edir ki, dövlət başçımız hələ mart ayında Şuşada olarkən səsləndirdiyi "Biz bundan sonra Qarabağda əbədi yaşayacağıq!" – tezisinin təmin edilməsi istiqamətində atdığı möhtəşəm addımlarının sırasını zənginləşdirir.

Avqustun 12-də imzalanmış sənədlərin məzmununa, mahiyyətinə nəzər salanda və onların Azərbaycan cəmiyyətinin qarşısına qoyduğu vəzifələrin miqyası barədə düşünəndə dövlət başçımızın ötən il noyabrın 6-da – hələ möhtəşəm qələbəyə bir neçə gün qalmış "BBC News"a verdiyi müsahibənin sonunda dilə gətirdiyi əminlik və arxayınlıq yadıma düşdü: "Mən hesab edirəm ki, ölkəmizin gələcəyi çox parlaq olacaq... Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək... Biz işğaldan azad edilmiş torpaqları yenidən quracağıq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq... Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Azərbaycana olan hörmət daha da artacaq ki, biz güclü dövlət kimi öz ərazi bütövlüyümüzü, ədaləti və beynəlxalq hüququ bərpa edirik... Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq".

İnanırıq ki, cənab Ali Baş Komandan qarşısında duran bütün vəzifələrin öhdəsindən layiqincə, qətiyyətlə gəldiyi kimi, Azərbaycan xalqının Qarabağda və Şərqi Zəngəzurda bundan sonra əbədi olaraq yaşamasına da möhtəşəm zəmin yaradacaq.

**_İttifaq MİRZƏBƏYLİ,_**
**_"Xalq qəzeti"_**

Xalq qəzeti .- 2021.- 25 avqust.- S.1;2.